# Aparılan islahatlar müsbət nəticələr verir



**Ümummilli liderimiz Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan dövləti bu gün dünya miqyasında böyük nüfuza malikdir. Prezident cənab İlham Əliyev ulu öndərimizin müəyyənləşdirdiyi siyasəti uğurla həyata keçirir. Müstəqil dövlətimiz bu gün çox etibarlı əllərdədir. Heydər Əliyevin vurğuladığı kimi Azərbaycanın dövlət müstəqilliyi əbədidir, daimidir, dönməzdir. Bu müdrik kəlam uğurla inkişaf edən müstəqil ölkəmizin timsalında öz təsdiqini tapır.**

Azərbaycanın dövlət müstəqilliyinin əbədiliyi, sarsılmazlığı və dönməzliyi ulu öndərin ən böyük tarixi xidmətlərindən biridir. Bu isə öz növbəsində onun yalnız Azərbaycan tarixində deyil, həm də böyük türk dünyasında əbədiyaşarlığını şərtləndirən başlıca amildir. Heydər Əliyev öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaradıb, ölkəmizi bütün sahələrdə gələcəyə aparan yolları müəyyən edib. Prezident İlham Əliyevin ulu öndərin müdrik siyasi kursunu, mütərəqqi dövlətçilik konsepsiyasını uğurla davam etdirməsi nəticəsində ölkəmiz öz inkişafında keyfiyyətcə yeni mərhələyə daxil oldu. Bu baxımdan, son vaxtlar aparılan struktur və kadr islahatları diqqətəlayiqdir və xalqımız tərəfindən yüksək qiymətləndirilir. Aparılan islahatlar keyfiyyətə əsaslanan inkişafın təmin olunmasına, insan kapitalının keyfiyyət göstəricilərinin yüksəlməsinə, dövlətin və dövlətçiliyin möhkəmlənməsinə xidmət edir. Respublikamızda dövlət idarəçiliyi sistemi daim təkmilləşir və daha çevik idarəetmə formasının yaranması üçün mühüm addımlar atılır. Aparılan struktur və kadr islahatları gənclərə yol açır, onların dövlət idarəçiliyi sisteminə geniş cəlb edilmələrinə əlverişli şərait yaradır və eyni zamanda Azərbaycanın beynəlxalq siyasi nüfuzu yüksəlir.

Ulu öndərin müstəqil Azərbaycan dövlətçiliyinin gücləndirilməsi, xüsusilə müstəqilliyimizin ilk dövrlərində yaranmış xaos və hərc-mərcliyə son qoyulması, eləcə də hüquq-mühafizə orqanlarının inkişafı istiqamətindəki misilsiz fəaliyyətində önəmli rol oynayıb. Son vaxtlar hüquq-mühafizə orqanlarında da mühüm islahatlar aparılır. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan daxili və xarici siyasət, o cümlədən təhlükəsizlik strategiyası Prezident, Ali Baş Komandan İlham Əliyevin müdrik və qətiyyətli rəhbərliyi ilə uğurla həyata keçirilir. Respublikamızın hüquq-mühafizə orqanlarında xidmət edən əməkdaşlar bu istiqamətdə öz töhfələrini verirlər. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndərin rəhbərliyi ilə dövlət quruculuğunun, onun tərkib hissəsi olan hüquq-mühafizə sisteminin və ordunun formalaşdırılması istiqamətində mühüm addımlar atıldı, normativ hüquqi baza təkmilləşdirildi, təhlükəsizlik şəraitində sürətli iqtisadi inkişafın bünövrəsi qoyuldu. Hazırda Azərbaycan gəncliyinin ümumi dünyagörüşünün vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik, humanizm prinsipləri əsasında formalaşdırılması əsas meyara çevrilib. Gənclərin dini ekstremizm, radikalizm, beynəlxalq terrorçuluq kimi təhlükəli, zərərli təsirlər altına düşməsinin qarşısının alınması başlıca fəaliyyət istiqamərlərindəndir. Hüquq-mühafizə orqanlarında xidmət edən gənc əməkdaşlar qarşısında, həmçinin müstəqilliyimizin və ərazi bütövlüyünün qorunması, dövlətçiliyin inkişaf etdirilməsi, sabitliyin və təhlükəsizliyin etibarlı təmin olunması sahəsində ciddi vəzifələr dayanır.

Bu gün Azərbaycan polisi Azərbaycan xalqının və dövlətinin keşiyindədir. Ulu öndərimiz Heydər Əliyevin qeyd etdiyi kimi, Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik respublikamızın müstəqillik tarixinin ən mühüm nailiyyətlərindən biridir. Ümummilli lider Heydər Əliyevin 24 may 1998-ci ildə imzaladığı 710 nömrəli Fərmanına əsasən, 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Daxili İşlər Nazirliyinin tərkibində ilk polis orqanlarının təsis edildiyi gün - 2 iyul Azərbaycan Polisi Günü elan edilib. Azərbaycanda hər il 2 iyul tarixi Azərbaycan Polisi Günü kimi qeyd edilir. Vaxtilə ulu öndər Heydər Əliyev demişdir: "Mən Azərbaycanın Prezidenti kimi, Ali Baş Komandan kimi Azərbaycan polisinə etibar edirəm, sizə inanıram, sizə arxalanıram. Bu güc və bu qüvvə ilə də biz müstəqil Azərbaycanı günü-gündən inkişaf etdirəcəyik və gələcək nəsillərə daha da gözəl Azərbaycan bəxş edəcəyik."

Prezident cənab İlham Əliyevin 2003-cü ilin oktyabrında dövlət başçısı seçilməsi ilə Azərbaycanın inkişafı yeni mərhələyə qədəm qoyub, sabitlik isə gələcək uğurlara və yüksəlişə doğru inamla irəliləyən müstəqil dövlətimizin simvoluna çevrilib. Dövlət başçısının həyata keçirdiyi hərtərəfli islahatlar çərçivəsində daxili işlər orqanlarının da müasirləşməsi üçün bütün lazımi tədbirlər görülüb. Ötən illər ərzində xidməti fəaliyyətin cəmiyyətin maraqlarına tam cavab verməsi, qabaqcıl beynəlxalq təcrübəyə uyğun qurulması məqsədilə müxtəlif fərman və sərəncamlar imzalanıb.

Bir əsrdən çox tarixə malik Azərbaycan polisi şərəfli bir yol keçərək, Vətənə, xalqa sədaqətlə və ləyaqətlə xidmət edib, dövlətçiliyin əsas sütunlarından birinə çevrilib. Bu gün asayişin qorunması polisin xüsusi xidmətləri kimi yüksək dəyərləndirilməlidir. Ölkəmizin dünyada sabitlik adası kimi tanınması, nüfuzlu beynəlxalq təşkilatların öz tədbirlərini keçirmək üçün məhz Azərbaycanı seçmələri təsadüfi deyil.

Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlar ölkəmizdə müsbət dəyişikliklərin fonunda hüquq-mühafizə orqanlarının, o cümlədən polisin fəaliyyətinin gücləndirilməsi, xalqa, dövlətə sədaqətli şəxsi heyətin formalaşdırılması və qanunun aliliyini əsas prinsip kimi qiymətləndirən əməkdaşların peşə xidmətinə cəlb edilməsi kimi önəmli addımlar atılıb. Bununla yanaşı, daxili işlər orqanlarının fəaliyyətini, habelə insan hüquq və azadlıqlarının təmin edilməsi mexanizmlərini tənzimləyən qanunvericilik bazası daha da möhkəmləndirilib.

Hazırda Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində daxili işlər orqanları insanların təhlükəsizliyinin keşiyində ayıqsayıq dayanır, cinayətkarlığa qarşı barışmaz mübarizə aparır, qanunla qorunan hüquq və mənafelərini etibarlı müdafiə etməyə, cinayətkarlığa, onun transmilli mütəşəkkil növlərinə qarşı mübarizədə adekvat cavab tədbirləri görməyə tam imkan verir.

**Eldar ƏHMƏDOV.**

Respublika.- 2020.- 14 fevral.- S.4.